# Nuhun qəbri Naxçıvandadır?

Mədəniyyət 8.11.08 s.8

bölgə

**Naxçıvan şəhərinin cənub tərəfində «Köhnəqala» adlanan ərazidə Həzrəti Nuh türbəsi VIII-XII əsrlərə aid memarlıq abidəsidir. K.A. Nikitinin «Naxçıvan şəhəri və Naxçıvan qəzası» adlı məqaləsində Həzrəti Nuh peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı kimi təsvir edilib:**

*"Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir".* Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar çox da böyük olmayan türbəni xatırladır, əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş, sərdabə tipindədir. Rəvayətə görə həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obraz və bəzək təsvirləri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur. V.M. Sisoyev əsərində «Nuhun türbəsi» haqqında məlumat verərkən, sərdabənin tərəflərinin 2,5 metr olan səkkizguşəli prizma şəklində olduğunu qeyd etmişdir. Məlumdur ki, Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkib.

Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanə və rəvayətlər var. Araşdırmalara və tədqiqatlara əsasən belə qənaətə gəlmək olar ki, dünya tufanı zamanı Həzrəti Nuh reyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunmuş, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salıb. Həmin yerin Gəmiqaya adlandırılması bu ərazidə Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlanan qədim yaşayış məskəninin mövcud olması haqqında əfsanədə öz əksini tapıb.

Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun özünün və bacısının məzarlarının Naxçıvan şəhərində olması barədə məlumatlara rast gəlinir. Nuhun türbəsinin Naxçıvanda olması haqqında, İ.Zopen, Dyuhubua-de Monpere, K.A.Nikitin və başqa tədqiqatçı alimlər məlumat verib.

XIX əsrin 80-ci illərində Naxçıvan şəhərində yaşayıb, pedaqoji fəaliyyətlə məşğul olmuş rus maarifçisi K.A.Nikitin yerli əhalinin köməyi ilə Nuh peyğəmbərin bu qədim diyarla əlaqəsinə dair rəvayətləri toplayıb yazıya alaraq, peyğəmbərin buradakı məzarının yerini müəyyənləşdirib.

Naxçıvan MR Ali Məclisi sədrinin «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» 2006-cı il 28 iyun tarixli sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə, tarixi mənbələr nəzərə alınmaqla, yenidən bərpa olunaraq, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılıb.

